# 1941—1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinə həsr edilmiş atletika üzrə rayon çempionatı



Qəbələ rayon Gənclər və İdman idarəsinin təşkilatçılığı ilə 24 aprel 2015-ci il tarixdə Zarağan kənd 2 saylı tam orta məktəbində oğlanlar arasında "1941—1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyi"nə həsr edilmiş atletika idman növü üzrə rayon çempionatı keçrilmişdir.

Yarışın keçirilməsində məqsəd 1941—1945-ci illər müharibəsində həlak olan azərbaycanlıların xatirəsini yad etmək, gənc nəslin vətənpərvərlik tərbiyəsini inkişaf etdirmək, həmçinin atletika idman növünün geniş yayılmasına nail olmaq, bu idman növü üzrə ustalığın artırılması və rayonun yığma komandasının tərkibini müəyyən etməkdən ibarətdir.

Çempionatın açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək 1941-1945-ci illər müharibəsində qələbənin 70 illik yubileyinin Azərbaycanda təntənəli qeyd olunmasından, ölkəmizdə idmana göstərilən hərtərəfli dövlət qayğısından danışmış, yarışın məqsəd və vəzifələri barədə məlumat verərək komandalara uğurlar arzulamışdır.

Beynəlxalq Atletika Federasiyasının qaydalarına əsasən 100 metr, 400 metr, 4x100 metr (estafet), kross (1500 metr) və uzununa tullanma növləri üzrə keçirilən yarışda rayonun ümumtəhsil məktəblərinin 25 komandası iştirak etmişdir. Komandanın tərkibi 5 idmançı və 1 məşqçidən ibarət olmaqla keçirilən yarış komanda və şəxsi birincilik xarakteri daşıyır.

Çempionatın yekununda estafet mərhələsində Qəbələ şəhər 3 saylı tam orta məktəbin komandası I yeri tutmuşdur. 100 m məsafəyə qaçışda və qaçaraq uzununa tullanmada Şamilxan Qəribli, 400 m məsafəyə qaçışda İlkin Həsənəliyev, 1500 metr (kross) məsafəyə qaçışda isə Sərvər Faxulov I yeri tutmuşdur.

Yekunda I, II və III yeri tutmuş idmançılara və komandalara Gənclər və İdman idarəsinin diplom və medalları təqdim edilmişdir.

**Elçin OSMANOV, gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Arxeoloji irsimizi öyrən—vətənini tanı

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzində "Üfüq" Gənclərin İnkişafı Naminə İctimai Birliyi tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə "Arxeoloji irsimizi öyrən - vətənini tanı" mövzusunda təlim keçirildi. Tədbiri giriş sözü ilə Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin icraçı direktoru Anar Məhərrəmov açdı. Çıxış üçün söz Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanova verildi. Fəxri Soltanov mövzu ilə bağlı iştirakçılara geniş məlumat verdi və təlimin əhəmiyyətini diqqətə çatdırdı.

Sonra "Üfüq" Gənclərin İnkişafı Naminə İctimai Birliyinin sədri, layihə rəhbəri Nail Şükürov layihə haqda məlumat verdi, arxeoloji irsimizin öyrənilməsinin olduqca əhəmiyyətli olduğunu qeyd etdi.

Təlimçi Natiq Alışov iştirakçılara ölkəmizdəki arxeoloji abidələrin, arxeoloji irsimizin və tariximizin öyrənilməsinin əhəmiyyəti, Qədim Alban məbədləri və s. haqqında geniş



məlumat verdi.

Tədbirdə iştirakçıları maraqlandıran mövzular ətrafında geniş müzakirələr aparıldı.

Sonda təlim iştirakçılarına sertifikatlar təqdim edildi və Qəbələ Dövlət Tarix Bədii qoruğuna ekskursiya təşkil olundu.

**Qəbələ Regional QHT- lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**

# Azərbaycanda dini tolerantlıq: Tarixi ənənə və müasirlik

**(Əvvəli 5-ci səhifədə).**

Təbii ki, onlar Azərbaycan dövlətinin qanun-qaydalarına tabe olmalıdırlar. Ancaq onlara istər vətəndaşlar, istərsə də rəsmi strukturlar tərəfindən dini və milli bağlılıqlarına görə hər hansı bir mənfi münasibət göstərilmir. Əksinə, onlara və onların problemlərinə həssaslıqla yanaşılır.

Bəs Azərbaycanın qonşularında bu baxımdan vəziyyət necədir? Ən çox tarixi ənənələri olan Rusiyada bu gün skinhedlərin başqa millət və dinlərdən olan insanlara qarşı hansı cür aqressiv münasibət bəslədiklərini sosial şəbəkələrdən və mətbuatdan mütəmadi olaraq izləyirik. Rusiya şəhərlərində, hətta hüquq-mühafizə orqanları əməkdaşlarının gözü önündə qafqazlılara, digər millət və dindən olan insanlara sırf milli və dini zəmində basqınlar olur, onlar döyülür, öldürülür. Böyük Rusiya bu radikal millətçilərin qarşısını ala bilmir, ya da məqsədli şəkildə almır.

Digər qonşumuz İranda isə dini və milli azadlıqlar baxımından vəziyyət daha pisdir. Təkcə onu demək kifayətdir ki, İranda yaşayan 30 milyondan çox Azərbaycan türkünün öz ana dilində təhsil almasına belə imkan verilmir. Bu ölkədə nəinki ayrı dindən olanlara, hətta eyni dinə mənsub olub digər təriqətləri daşıyan insanlara bu azadlıq verilməmişdir.

Ermənistana gəlincə isə orada tolerantlıqdan danışmağa dəyməz. Ermənilər tarixən ən dözümsüz, təcavüzkar, şovinist olduqlarını təsdiqləyiblər və onlar bu siyasətlərini açıq-aşkar şəkildə, hətta işğalçılıqla bütün dünyaya bəyan ediblər. Gürcüstanda son illərdə bu sahədə vəziyyət bir qədər yaxşılaşsa da orada Azərbaycanda olduğu qədər tolerantlıq yoxdur. Borçalıdakı soydaşlarımıza münasibət bunun əyanı göstəricisidir.

Region ölkələri ilə müqayisə etdikdə Azərbaycanın tolerantlıq baxımından doğrudan da bir model dövlət olduğuna şübhə qalmır. Bu, həm dövlətin, həm də cəmiyyətimizin fəxarətlə dünyaya təqdim edə biləcəyi ənənəsidir.

Dini dözümlülük, multikulturalizm, əsasən, xalqın psixoloji durumundan, insanların psixoloji portretindən asılı olmaqla, böyük tarixi inkişaf prosesinin təsiri nəticəsində oturuşmuş, formalaşmışdır.

Azərbaycan yeganə müsəlman ölkəsidir ki, burada islam məzhəblərarası ziddiyyətləri yaşanmır.

Tolerantlıq—Azərbaycanda dövlət siyasətidir.

Tarixi reallıq və ənənələri nəzərə almaqla, ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını sürətlə dəyişən dünyanın geosiyasi reallıqlarını adekvat olaraq davam etdirən Prezident İlham Əliyev Azərbaycan Respublikasını, tarixinin mürəkkəb sınaq dövrünü yaşayan müsəlman dünyasının bir sabitlik adasına çevirə bilmişdir. İndi Azərbaycan multikulturalizm və dini tolerantlığın unikal məkanına çevrilmişdir. Dünya meridianlarında ölkəmiz sivilizasiyalararası toqquşma deyil, əksinə onların harmoniyada və əməkdaşlıqda olduqları bir coğrafi məkan kimi tanınmaqdadır.

Bu gün Azərbaycanın 5 böyük tolerant dövlət arasında özünəməxsus xüsusi yeri vardır. Bu reallıqdan sevinənlər də, onu həzm etməyən bədxahlar da vardır. İkincilər ölkəmizin ən dəyərli sərvəti olan milli barışıq, sabitlik, və dini tolerantlığın hər vəchlə pozulmasında maraqlıdırlar. Elə bu məqsədlə də ölkəmizdə ənənəvi olmayan dini cərəyan və sektaların yayılmasında maraqlı tərəf kimi çıxış edirlər. Bu prosesə cəmiyyətin müxtəlif təbəqələrini, xüsusən də gəncləri cəlb etmək istəyirlər. Hələ ki, bu proses fərdi xarakter daşıyır. Təşkilatçılar, heç şübhəsiz, onun kütləviləşməsinə hədəfləniblər.

Milli-mənəvi dəyərlərimizin yaşadılmasında, tolerantlıq ənənələrinin təbliğində genişmiqyaslı fəaliyyəti ilə ictimaiyyətimizin rəğbətini qazanan Heydər Əliyev Fondu da bu sahədə böyük uğurlara imza atır. Fondun prezidenti, YUNESCO və İSESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva tarixidini, mədəni abidələrin qorunmasını və bərpasını daim diqqət mərkəzində saxlayır. Azərbaycana gələn xarici qonaqlar ölkədə keçirilən beynəlxalq miqyaslı mötəbər tədbirlərdə yaxından iştirak edirlər. Hər il Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festifalı bunun bariz nümunəsidir. Belə nüfuzlu tədbirlər bəşəriyyətin ümumi maraqlarının həllinə və qlobal problemlərin - terrorizmin, dini fanatizmin, ekstremizmin və separatizmin aradan qaldırılması naminə mədəniyyətlərarası münasibətlərin inkişafına güclü təkan verən bir amildir.

I Avropa Oyunlarının Bakıda keçirilməsi ölkəmiz üçün, ümumiyyətlə, bütün Avropa Olimpiya hərəkatı üçün tarixi hadisədir. Regionun lider dövlətinə çevrilən Azərbaycanın sürətli inkişafı, dünya birliyində tutduğu mövqeyi, mövcud ictimai-siyasi sabitlik beynəlxalq ictimaiyyətdə əminlik yaradıb ki, ölkəmiz bu mötəbər tədbirə uğurla ev sahibliyi edə biləcəkdir. Bu qərarın qəbul edilməsi respublikamızda çoxsaylı idman yarışlarının, Avropa və dünya çempionatlarının yüksək səviyyədə keçirilməsinə, idmançılarımızın beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlərə, ümumilikdə Azərbaycanda idman sahəsində görülmüş işlərə beynəlxalq və Avropa Olimpiya Komitəsi tərəfindən verilən yüksək qiymətdir. Bu faktlar Azərbaycan Respublikasının mədəniyyət və tolerantlıq sahəsində irəli atdığı ən uğurlu addımlardandır.

Biz inanırıq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəstəyi ilə belə nailiyyətlərimiz daha çox olacaq. Bu təşəbbüslər bir azərbaycanlı olaraq hamımızı sevindirir. Hər birimiz ulu öndərimiz Heydər Əliyevin qeyd etdiyi kimi azərbaycanlı olmağımızla fəxr edirik.

Biz, müstəqil Azərbaycanın vətəndaşı olaraq bu sahədə üzərimizə düşən məsul vəzifəni layiqincə yerinə yetirməli, ictimai həyatın bütün sahələrində tolerantlıq anlayışını düzgün təbliğ etməli və tolerantlığın məkanı sayılan Azərbaycana layiq vətəndaş olmalıyıq.

**Azad MƏMMƏDOV, Qəbələ peşə məktəbinin direktoru.**